# 2013-CÜ İLİN ƏSAS QRANT MÜSABİQƏSİ (EİF-2013-9(15)) ÇƏRÇİVƏSİNDƏ YERİNƏ YETİRİLMİŞ LAYİHƏ ÜZRƏ NƏŞRLƏR

1.Dünya elmində analoqu olmayan muğamın yaranma tarixini və onun genezisini açıqlayan fənlərarası tədqiqat işi ilk dəfə olaraq oxuculara təqdim edilib

2. Şərq təfəkkürü və dünyagörüşünün daxili mənəvi amilə üstünlük verdiyi gerçəkliyin ikili – daxili mənəvi (kontinual) və zahiri fiziki (diskret) mövcudluğu vurğulamaqla muğam yaradıcılıq - nurlanma prosesini Şərq klassik mənəvi irsinin təməlində duran konseptual özəyi kimi baxılaraq əsaslandırılmışdır.

3. Muğam irsini Şərq mədəniyyəti formatında - aşağıdakı məsələlərə nəzər keçirməklə araşdırılıb:

a) Muğam mənəvi idrak sisteminin ruhi özəyi kimi. Məsələnin həlli muğamın ilk mənasını sakral elmin simvolikasına nəzər salmaqla həyyata keçirilir.

b) Muğam konseptual fikrinin ənənə statusunda coğrafiyası məsələyə aid müxtəlif Şərq ( yaxın Şərq, həm də orta və uzaq Şərq,) ölkələrinin ayin mədəniyyətini öyrənməklə müğam konseptuallığının cizgilərini üzə çıxardmaq məqsədini daşıyır.

c) Növbəti muğamın dil-ifadə formaları – məsələsinə aid muğam sinkretik mətn olduğu zamanda xüsusi səs ifadələrindən başqa rənq, plastik hərəkətlə ötürülən məzmun, və s. ekvivalentlərini təhlil etməklə öyrənilir.

d) Ayin – mərasim mətninin konseptual muğam əsası məsələsi hər bir Şərq xalqına xas olan zəngin sinkretik mətninin özünəməxsusluğu ilə yanaşı həmçinin oxşar ortaq cəhətlərinin mövcudluğunu izah etməklə ayin – marasim sisteminin bir vahidliyə - mənəvi idrak prinsipinə tabeçiliyini sübuta gətirmək ilə öz həllini tapır.

e) Əsas məsələlərdən biri olaraq muğam və fəlsəfi fikir müsəlman və bütpərəst Sərq ölkələrinin fəlsəfəsinin müqaisəli isıqlandırılması ilə araşdırılır.

f) Tutduğumuz mövqeyinin labüdlüyü muğam və din məsələsinin həllində də özünü doğrudaraq bir çox cavabsız qalan suallara aydınlıq gətirməyə əsas yaradır.

İşlədiyimiz problemin həllində əvvəlki araşdırmalarda olduğu kimi, xüsusi diqqət musiqi və idrak arasındakı əlaqəyə, musiqinin idrakın rasional və irrasional qatlarının təzahürü kimi şərhinə verilmişdir.

Maraq sahəsinə İran, Ərəb, Türk, Hind, Yapon və s. ənənəvi muğam prinsipi ilə qurulan mətnlər cəlb edilmişdir. Xüsusi diqqət araşdırmada Şərq ənənəvi mədəniyyətinin səsin fenomenallığının duyulmasına yetirilir. Səsin sinkretik təbiətini vurğulamaqla, hər bir səsin ayrılıqda konseptual məzmun daşıdığı haqqında fikrin dərki üçün zəmin yaranır.

Erkən dövrdən batini və zahiri dünyaların sərhədində həyata keçən ruhi axtarış – təşəkkülün ahənqdarlığı musiqinin bir təzahür kimi mahiyyətini müəyyənləşdirmişdir. Məhz ruhi təşəkkül qaydalarının sistemli dərki ilkin olaraq ruhi, eləcə də dünyavi elmin konseptual əsasını qoymuşdur.

Dairə prinsipi üzrə qurulan istənilən Şərq mətni ruhi axtarışla bağlı musiqili mənaya istinad edir. Ruhi paradiqma konteksti tərəfindən verilən dairə təfəkkür prosesinin, mənəviliyin eyni zamanda musiqinin ekvivalenti kimi izah edilirdi. Hazırki tədqiqanda muğam “ritmik idrak dairələri” iki əsas statusda - sakral elm, bədii ənənə, sonraki dövrdə isə incəsənət kimi öz əksini tapır.

Muğamın mahiyyətinin idrak prinsipi kimi dərk edilməsi humanitar və dəqiq elmlərin müxtəlif sahələrində tədqiqatlar üçün başlanğıc nöqtəsi ola bilər. Sırf təcrübi nöqteyi - nəzərindən bu tədqiqat işi ifaçılıq ənənəsinin qırılmış bağlarını bərpa etmək, onun varislik prinsipi əsasında gələcək inkişafını təmin etmək üçün istifadə oluna bilər. İşlənilən mövzuya aid məqalələr çapa təqdim edilmişdir.

Məqalədə layihənin əsas konsepsiyasına müvafiq olaraq əsasən musiqinin insan həyatında rolu və düşüncəni formalaşdıran amil kimi nəzərdən keçirilmişdir. Məqalədə müxtəlif Şərq regionlara xas musiqi formaları və sistemləri arasında müqayisəli təhlil aparılmışdır.

| № | Nəşr haqqında məlumat (Məqalələr) | Tam mətn |
|---|---|---|
| 1 | **Məqalənin adı:** Conceptual content of the Azerbaijani mugam-dastgah as methodological basis for comparative research into the traditional oriental culture<br>**Müəlliflərin S.A.A:** Farhadova S.<br>**Nəşrin adı:** AMEA Xəbərləri, 2015, cild LXXI, №2, p.120-124<br>**E-link:** -<br>**DOİ:** -<br>**İndekslənmə:** -<br>**İF:** - | |
| | **Nəşr haqqında məlumat (Kitablar)** | |
| 1 | **Kitabın adı:** Azərbaycan muğam–dəstgahının tarixi kökləri<br>**Müəlliflərin S.A.A:** Fərhadova S.M.<br>**Nəşrin adı:** Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018. – 200 səh. | |
| 2 | **Kitabın adı:** Исторические корни азербайджанского мугам-дастгяха<br>**Müəlliflərin S.A.A:** Фархадова С.<br>**Nəşrin adı:** Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Баку-2018, 224 с. | |
| 3 | **Kitabın adı:** Muğam fəlsəfəsi<br>**Müəlliflərin S.A.A:** Bünyadzadə K.<br>**Nəşrin adı:** Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Bakı-2018, 160 s. | |